# XƏYANƏTİN KƏSİŞMƏSİ

*povest*

*(Əvvəli ötən saylarımızda)*

- Ata, elə edin ki, Mən təhsilimi Daşkənddə davam etdirim?

Qızının hər istəyini yernə yetirməyə örgənən ata bu dəfə bir az müqavimət göstərməyə calışdı.

- Qızım, burada sənin nəyin catmır? Nə istəyirsən o dəqiqə sahib olursan. Həmdə həmişə gözümüzün önündəsən. Bütün müəllimlərin də tanışdı. Daşkənd uzaqda olduğundan, hər gün səninlə maraqlanmaq elə də asan olmayacaq. Burada təhsilini davam etdirsən olmazmı?

Yox, ola bilməz. Atası da dütün dostlarını, tanıdığı və tanımadığı insanları işə qoşaraq, qızının arzusunu yernə yetirdi. Kimsən, filankəsin gözünün ağı-qarası bir qızı, bir balasıdır. Bütün bu mülklər, saraylar, var dövlət sabah kimə qalacaq?

Qısası, tələbəliyin sonunu Daşkəndə keçirməli oldu. Əvvəlcə şəhərin mərkəzində ev alacağına soz verən atası onu paytaxtdakı dostlarının birinin evində yerləşdirdi. Ancaq Visolə universitetin bu yaxınlarda rekonstruksya olunmuş, müasir avadanlıqlarla təchiz edilmiş yataqxanasını gördükdən sonra şəxsi mənzili olması fikirindən müvəqqəti vaz keçdi.

Həqiqətən, qərib şəhərdə, böyük mənzildə tək neçə yaşayacaqdı? Orada kimnən qalacaqdı? Yataqxanada yaşamağı coxdan arzulayırdı. Hərdən tələbə yoldaşları yataqxanada baş verən həngamələrdən, hadisələrdən biri birinə danışdıqda onlara həsad aparar, atasının gözəl yaraşıqlı mənzilini qoyaraq tələbələrin səs-küyü ilə dolu olan yataqxanaya gələrdi.

Bir iki dəfə rəfiqələri ilə onlar yaşadıqları yataqxanada olmuş, lakin oradakı qarışıqlıq, dəhliz boyu xoşagəlməz qoxular qarşısında dayana bilməyərək geri qayıtmış və bundan sonra yataqxana arzusundan imtina etmişdi.

Visolə Daşkəndə gəlib burada tələbələrin yüksək səviyyəli mehmanxanalardan elə də fərqlənməyən tələbə yataqxanalarını görüb orada qalmağa üstünlük verdi. Atası da qızının qərarına qarşı çıxmadı.

Visolə oktyabr ayının sonlarına kimi bütün sənədlərini rəsmiləşdirərək, bu nüfuzlu ali məktəbin tələbələri sırasına qoşuldu. Tələbə yoldaşları ilə tezliklə tanış oldu. O başqalarının qəlbinə yol tapmaq üçün nə etmək lazım olduğunu yaxşı bilirdi. Elə təhsilin ilk günü kursdakı qızların hər birinə bir plitka şokolad, oğlanlara isə bir packa bahalı siqaret hədiyyə etdi. Əvvəllər belə şeyə öyrənməyən tələbələr buna heyran qaldılar.

-Atam yeni supermarketdən alıb göndəib,- təvazökar bir şəkildə dedi.

-Atanızı tamamilə xərcə salıbsız ki! - verilən suala əhəmiyyət vermədi.

- Hec də yox, supermarket özümüzünküdür, bu kimi sözlər kəndli söhbətinə oxşayır dedi. O vaxtdan tələbə yoldaşları ona hörmət etməyə başladılar. Qızların hamısı onun ətrafında fırlanmağa başladılar. Çünki hər iki-üç gündən bir tələbə yoldaşlarını dondurmaya ya da qamburqerə qonaq edirdi. O, tezliklə onların karyeralarında daha zəngin və daha diqqətli olma ehtimalı olduğuna əmin oldu.

Tələbə yoldaşlarının əksəriyyətini oğlan uşaqları təşkil edirdi. Bəzən oğlanlar da onun mərhəmətindən, əliacıqlığından istifadə edirdilər. Əvvəlcə o oğlanlara gizli müştəri gözü ilə baxırdı. Həqiqətən tələbə yoldaşlarının əksəriyyəti varlı ailələrin uşaqları idi. Çoxları şəxsi avtomobildə gəlirdilər. Geyimlərində, davranışlarında biri-birindən geri qalmırdılar. Amma, bununla yanaşı onların arasında orta və aşağı təbəqədən olan qızlar və oğlanlar da var idi.

Visolənin xoşuna gələn birinci oğlan Fəyaz oldu. Lakin o digərlərinə nisbətən elə də varlı deyildi. Yalnız... oğlanlar arasında zəriflikdə heç kim ona tay ola bilməzdi. Acığı, o, vilayətdə oxuyanda da, belə bir oğlana rast gəlməmişdi. Axtarsan heç Daşkənddə də belə boy-buxunlu, yaraşıqlı oğlan tapılmırdı.

Gizlicə onu nəzərində tutaraq, onun haqqında məlumat toplamağa başladı. Bu vaxta kimi o bir necə qızı aldadaraq onlarla əylənmiş, eyni zamanda Şərqiyyə adlı tələbə yoldaşı ilə də yaxın münasibətdə idi. Bəzi qızlardan örgənmişdi ki, Şərqiyə əvvəllər Fəyazın yaxın dostu ilə gəzmiş və dostlar arasında yaranmış anlaşılmazlığa səbəb olmuşdu, Fəyaz qəsdən qızın başını şirin vədlərlə aldadaraq onu öz tərəfinə cəkə bimişdi.

"Deməli, o Şərqiyəni sevməyib!" Bu fikir Visolənin beynini elə məşğul etdi ki, birdə baxdı Fəyaza vurulub.

Visola öz doğma şəhərlərin də bir iki oğlanla tanş olaraq görüşə cıxmışdı, ancaq bu münasibətlərin dərinləşməsinə yol verməmişdi. Bu da onu göstərir ki, bu vaxta kimi onun ürəyini heç bir oğlan fəth edə bilməyib.

İndi isə...Visolə özü də anlamırdı. O, Fəyazı dərs zamanı saatlarla izləyir, lakin uşaqlıqdan heç bir sirini başqalarıyla bölüşmədiyi üçün heç kim bilməsin deyə gözlərini gizliçə qapadırdı.

Bir iki dəfə onun Şərqiyə ilə söhbət etdiyini görüb, qəlbən ona acığı tutmuşdu. Onda da Şərqiyəyə qarşı hədsiz nifrətin, paxılıq hisslərinin baş qaldırdığını hiss etmişdi.

Visolə atasının güçü, varı hesabına bütün arzularını həyata keçirərdi. Amma görəsən atası onun qəlbindəki mücərrəd arzusunu reallaşdırmağa qadirdirmi?

Bəli, könül işi çox həssas məsələdir. Oğlana nə var ki, kimisə sevsə dərdini bölüşməyə adam tapır. Qızın könlünü əla ala bilsə alır, ala bilməyəndə isə nə çox küçələrdə başqa qızlar. Ancaq qız sevəndə çox cətin olur. Çünki oğlan qarşısında diz çökərək, öz dərdini ona bildirməyə ləyaqəti yol vermir. Bundan başqa, o sevdiyi oğlanın başqa bir qızın saçlarını sığallayıb, ətrini qoxulayırsa , onu yox başqasını sevirsə ...

Visola bütün bunları anlasa da carəsiz olduğunu başa düşürdü. Gec ya tezi... Fəyazın Şərqiyə ilə evlənəcəyi barədə söz söhbət gec-tez ona catacaq, onda isə bütün dünya ona qaranlıq görünəcəkdi.

Günlərin bir günü... Fəyazı kitabxanada tək tənha oturan gördü. O ilk dəfə onunla üzbə- üz oturaraq ünsiyyət qura bildi. Onun, şən gənc bir insan olduğuna yenidən əmin oldu. Sonra daxilindəki hissinə tabe olaraq utanmadan oğlanın gözlərinə ... cəsarətlə və diqqətlə baxdı. Simmetriya insan gözəlliyinin əsas tələblərindən biridir. Bu prinsip Fəyazın aydın, üzündə, düz və səliqəli qaşlarında, geniş yaraşıqlı çiyinlərində öz əksini tapmışdı.

- Gözləriniz yaraşıqlıdı!

Fəyazdan bu sözləri eşitməyi ilə qalxıb getməyi bir oldu. Eyni zamanda hiss etdi ki, oğlandan utanır.

Sonralar o Fəyazla tez- tez təklikdə görüşüb gəzməyə çıxırdı. Təbii ki, Şərqiyənin bundan xəbəri olmurdu. Fəyaz özü də buna calışırdı. Visola isə, Şərqiyədə hər hansı bir şübhə yaranmaması üçün onunla qarşlıqlı dostluq əlaqələrini möhkəmləndirir, hətta onunla bir otaqda yaşayırdı. Günlər öz axarınca kedirdi. Şərqiyədən gizlin bir necə dəfə də görüşdülər. Bu görüşlər Visoladə çox şirin anlar və gözəl xatirələrlə yadda qalırdı.

İndi isə...

İndi isə, Visolə öz hərəkətindən peşman olmuşdu.

***(Davamı var)***

***Rüstəm* CABBAROV**

*Tərcüməçi: Ədalət* Məmmədov